Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

F.Köçərli adına Respublika
Uşaq Kitabxanası

# Ayrılıq nəfəsli, hicran soraqlı şairə
# Həkimə Billuri

**Həkimə Billurinin 90 illik yubileyi münasibəti mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2016**

**Tərtibçi:** **Könül Səmədzadə**

**Redaktor:** **Zahirə Dadaşova**
Əməkdar mədəniyyət işçisi

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
Əməkdar mədəniyyət işçisi

**Ayrılıq nəfəsli, hicran soraqlı şairə Həkimə Billuri:** metodik vəsait / tərt. ed. K.Səmədzadə; red. Z.Dadaşova, ix. red. və burax. məsul Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2016.- 23 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2016.**

# Tərtibçidən

Həkimə Billuri Azərbaycanın ikiyə bölünməsi faciəsini şəxsi taleyində yaşayan, yarım əsr doğulduğu yerləri, doğma ocağı görmək həsrəti ilə yanıb yaxılan, Təbrizi daim gecələr yuxularında görən, amma yuxuları heç çin çıxmayan bir Azərbaycan şairəsidir. O, Güney dağlarından bir udum hava, meşələrindən bir tək yarpaq diləmiş, vətənin suyundan bir ovuc içmək, Arazın o tayına qədəm basmaq həsrəti ilə alışıb-yanmışdır.

Həkimə Billurinin ədəbi irsinin oxucular arasında geniş təbliği üçün hazırladığımız “Ayrılıq nəfəsli, hicran soraqlı” adlı vəsaiti sizin ixtiyarınıza veririk. Ümüdvaram ki, bu metodiki vəsait kitabxanaçıların istifadə edə biləcəkləri vəsaitlərdən biri olacaq. Vəsaitdə Həkimə Billurinin həyat və yaradıcılığı, əsərlərindən nümunələr verilmişdir. Vəsait iki hissədən ibarətdir.

I hissə: Həyat və yaradıcılığı

II hissə: Yubiley tədbirlərinin keçirilməsi



## Bölmə I
## Həyat və yaradıcılığı

*Mən də bir şairəm, sinəsi dağlı,*
*Ayrılıq nəfəsli hicran soraqlı.*
*Vətənin qapısı üzümə bağlı,*
*Hər axşam bu dərddən alışır sinəm,*
*Vətən həsrətliyəm, el həsrətliyəm.*

***Həkimə Billuri***

Bu fikir ömrünün son anına kimi Həkimə xanımın dilindən düşməzdi. Ovqatının ən xoşbəxt cağında da yurd həsrəti ona qənim kəsilərdi. Göz ifadəsi dəyişərdi. Sevinci çöhrəsində, təbəssümü dodağında donardı. Əlini hərarətlə, həyacanla döyünən ürəyinin üstünə qoyardı. Nə faydası, təskinlik tapa bilməzdi. Varlığı gizildəyərdi. Elə bil dilinin üstünə od qoyardılar, danışmağa taqəti olmazdı. Qalardı yana-yana, qırvrıla-qıvrıla. Ən gərgin anlarında gücü gələcək ümidinə, inamına çatardı. Amma...onları da özü ilə haqq dünyasına apardı.

Həkimə İbrahim qızı 90 il əvvəl Cənubi Azərbaycanın Zıncan şəhərində dünyaya göz açmışdı. Bütün uşaqlar kimi, o da qayğısız, xoşbəxt böyümüşdü. Yeniyetmə yaşına çatanda isə hissləri, duyğuları onun düşüncəsini dəyişər, təfəkküründə haqqa, ədalətə tapınmaq kimi fikirlər oyanardı. Əlbəttə, bunlar hələ tam formalaşmamışdı. 10-15 yaşında qız bilmirdi ki, nə üçün Təbrizdən, Zəncandan qohumları, qonşuları, qardaşları Araz çayının o biri səmtinə can atır, cənubdan Şimala baş götürüb gedirlər.

Həkimə orta məktəbi yüksək qiymətlərlə bitirdiyi üçün ona təklif etdilər ki,  elə orada qalıb müəllim işləsin. O bu təklifdən

fərəhləndi. İlk gündən ona göstərilən etimadı doğrultmağa çalışdı. Lakin duyub, anlayıb görəndə ki, qohum-əqrabaları pərən-pərən düşüb, bəlkə də özündən asılı olmayaraq gileyləndi: "Dağlar, ox olub gözümə batırsan. Araz, mənim qanım kimi niyə bulanıq axırsan? Üzün dönsün, ay xan Araz, niyə qardaşı qardaşdan ayırırsan?"

Gənc Həkimə sevincini, kədər və intizarını poetik formada bildirməyi bacarırdı. Düzdür, o, hələ gələcək qismətini, necə həyat tərzi yaşayacağını bilmirdi. Yalnız xəyalında bu hisslər dolaşırdı: "Zaman, dövran ən ədalətli hökmdar, adil hakimdir. Bu, mütləq qanunlar qarşısında niyə haqsızlıq qalib gəlir?" Nəhayət, Həkimə də Arazın bəri səmtinə təşrif gətirdi. 20 yaşında qız üçün bu, ola bilsin, arzuolunmaz səfər idi. Ancaq o gəlməliydi, başqa əlacı yox idi. Çəkişmələrdən, didişmələrdən can qurtarmalıydı. Qəlbinin kövrəkliyi az keçmiş dil açıb danışdı:

Kaş Təbriz olaydı, bir də o günlər,
Qalib gəldiyimiz o aydın səhər,
Azadlıq olaydı, bir də ki zəfər,
Qəlblərdə min ümid yandıran atəş,
Üfiqdən bayraq tək enəydi Günəş...

Şairə ilk şeirlərini hələ orta məktəbdə oxuyarkən fars və Azərbaycan dillərində yazmışdır. Onun Azərbaycan dilində qələmə aldığı ilk şeirləri və məqalələri 1945-ci ildə İranda "Azər", "Vətən yolunda" qəzetlərində və "Azərbaycan" jurnalında dərc olunmuşdur. O, Bakıya gəldikdən sonra bədii və elmi yaradıcılıqla fəal məşğul olmuş, dövrü mətbuatda müntəzəm çıxış etmişdir. Onun "Şeirlər", "Azadlıq baharı", "İthaf", "Sənin könül otağın" və başqa kitabları Bakıda və Moskvada nəşr olunmuşdur. Həkimə

xanımın şeirləri rus, ingilis, gürcü, özbək, moldav dillərinə və digər dillərə tərcümə edilmişdir.

Həkimə xanım bədii tərcümə ilə də məşğul olmuşdur. O, Səməd Vurğunun, Cəfər Cabbarlının, Nəbi Xəzrinin, Mirvarid Dilbazinin əsərlərini fars dilinə tərcümə etmişdir. Həkimə Billurinin elmi axtarışları İran Azərbaycanı ədiblərinin yaradıcılığı ilə sıx bağlı olmuşdur. Onun Şəhriyara həsr etdiyi sanballı əsərləri ədəbiyyatşünaslığımızda xüsusi yer tutmuşdur. Məhəmməd Hüseyn Şəhriyarın Həkimə Billuriyə həsr etdiyi şeirlər Billuri yaradıcılığına verilən ən yüksək qiymətlərdən biridir.

Yurd həsrəti insanın dincliyini ərşə çəkir. Elə hey gözləri yolda, qulağı səsdə qalır. Doğrudur, gənc Həkimə Azərbaycana gəlməyindən peşman deyildi. O, Səməd Vurğundan, Mirzə İbrahimovdan, Süleyman Rüstəmdən daim qayğı görürdü. 1947-ci ildə Bakı Dövlət Universitetinin filologiya fakültəsinə qəbul olundu. Amma ürəyindən nisgil çəkilmədi. 1952-ci ildə Hökumə Bülluri Şərq dünyasının söz, sənət, poeziya korifeylərindən olan Şəhriyara müraciətlə yazmışdı:

Qoy zaman dolansın, sənsə belə qal!
Şair dəyişməyə tapmasın macal.
Təbrizi, Zəncanı sən yadına sal,
Gəl opüm mübarək, odlu sətrini,
Səndən Təbrizimin alım ətrini...

Zəmanəsinin tanınmış ədəbiyyatşünas alimi, son dərəcə həsas, diqqətcil insan Əli Sultanlı Həkimə xanımla universitetin auditoriyasında tanış olub, onun şeirlərindən məmnun qaldığını bildirib. “Qızım, sənin yaradıcılığından zövq alıram. Getdiyin yol

çətindir, amma şərəflidir. Sənə ürəyincə uğurlar arzulayıram" deyib. Eyni zamanda Əli Sultanlı gənc şairənin ilk "Mənim arzum" və "Ölməz qəhrəman" kitabları haqqında "Ədəbiyyat və incəsənət" qəzetində geniş məqalə də dərc etdirib.

Tələbəlik illərini uğurla başa vuran Həkimə Billuri "Azərnəşr"in Bədii ədəbiyyat şöbəsində işə qəbul olundu. Yaradıcılığı məhsuldar oldu. "Şairin yadigarı", "Məndən uzaqlarda" şeirlər toplusu işıq üzü gördü. Çox keçmədi ictimai-siyasi fəaliyyətini nəzərə alıb onu Azərbaycan demokrat Partiyası Mərkəzi Komitəsinin orqanı olan "Azərbaycan" qəzetinin baş redaktoru vəzifəsinə təyin etdilər. Təxminən dörd il orada işlədi, ürəyindəki arzularını poetik misralarla, publisistik qeydlər vasitəsilə oxuculara çatdırdı. Lakin poeziya onun varlığından, damarlarından, qanından süzülüb gəlirdi. İstəsə də, ondan ayrıla bilmirdi. Bəzən düşünərdi: "Nə yaxşı əlim qələm tutur, könlümdən keçənləri yazıb azacıq da olsa, sakitləşə bilirəm. Yoxsa ürəyim qüssədən çərləyərdi".

Bütöv bir insan ömrünü həsrət yükü altında yaşamaqdan çətin nə var, görəsən dünyada?! İnsanın elə kövrək, elə həzin anları olur ki, bu anda insan o ağırlıqdan sanki sına bilər, əyilə bilər. Bəlkə də insanı ağırlıqdan xilas edən içində şam şöləsi kimi titrəyə-titrəyə nur saçan ümid, inam işığıdır. Allah heç kimi ümidsiz, inamsız eləməsin.

# II Bölmə
# Keçiriləcək tədbirlər

Həkimə xanım söz adamıdır. Onun elə ömür sarayının zinəti də sözlərdir. Bəli, elə bu söz adamının yaradıcılığına bu gün bir daha nəzər salacağıq.

Yubileyini qeyd etdiyimiz xalq şairəsi, tanınmış incəsənət xadimi Azərbaycan Yazıçılar Birliyinin üzvü olmuş görkəmli insan, gözəl xanım Həkimə Billuridən danışacagıq.

Həkimə Billurinin yaradıcılığını daha geniş təbliğ etmək üçün ilk növbədə kitabxanalarda kitab sərgisi hazırlanmalıdır. Sərgi həm foto sərgi, həm də şairin yaradıcılığı ilə bağlı olan kitab sərgisi kimi oxuculara təqdim oluna bilər. “Həkimə İbrahim qızı Billuri” adlı foto sərginin nümunəsini veririk.

## Foto sərgi





 

## Görkəmli şəxsiyyətlərin söylədikləri sitatlar:

Hökumə xanım istedadlı şair, geniş bilikli elm xadimi, həssas qəlbli insan kimi hələ də yaddaşımda yaşayır.

**Bəxtiyar Vahabzadə**

*Xalq şairi*

“Qızım, sənin yaradıcılığından zövq alıram. Getdiyin yol çətindir, amma şərəflidir. Sənə ürəyincə uğurlar arzulayıram”.

**Əli Sultanlı**

*Ədəbiyyatşünas, pedaqoq*

Həkimə Billuri ilk növbədə Azərbaycanın ikiyə bölünməsi faciəsini şəxsi taleyində yaşayan, yarım əsr doğulduğu yerləri, doğma ocağı görmək həsrəti ilə yanıb yaxılan, Təbrizi daim gecələr yuxularında görən, amma yuxuları heç çin çıxmayan, son nəfəsində belə bu həsrətlə barışmayan bir Azərbaycan şairidir.

**Aybəniz Kəngərli**

*Filologiya elmləri doktoru*

Hökümə xanım həzin, kövrək ürəyi, mübariz ruhu ilə həyatın ağrılarına üstün gələn, həsrətini içində çəkən insandı.

**Fəridə Ləman**
*Filologiya elmləri namizədi*

Hökumə xanım mühacirət illərini ana nəfəsindən uzaqlarda yaşasa da, onun qanadlı misraları sərhədləri uçub keçməkdə çətinlik çəkmirdi.

**Sabir Nəbioğlu**
*Tənqidçi, ədəbiyyatşünas*

"Ürək dustaq oldu dərdə, fərağa" desə də, onun ömründən bu günümüzə daim anılan unudulmaz xatirələr yadigar qalmışdır.

**Telman Mehdixanlı**
*Jurnalist*

Foto sərgi ilə bərabər kitab sərgisinin də təşkili məqsədəuyğundur. Kitab sərgisi müxtəlif başlıqlar altında təşkil edilə bilər. Məsələn, "Həkimə Billuri-90", "Ayrılıq həsrətli, vətən soraqlı", "Apar məni o yerlərə" və s. İndi isə "Vətən həsrətli Həkimə Bülluri" adlı kitab sərgisinin nümunəsini veririk.

1. Başlıq: "Vətən həsrətli Həkimə Billuri"
2. Kitablarının nümayişi
3. Görkəmli insanların H. Billuri haqqında söylədikləri
4. Dövrü mətbuatda nəşr olunan məqalələrin kartotekası
5. Şeir parçası

Niyə gəldim bu dünyaya,

Nədən ötrü?
Kimlər dözdü min əzaba
Məndən ötrü?
Düşünürəm gəlmişəm ki,
Bu dünyaya, insanlara
Öz borcumu verib, gedim.
Evlər qurum, bağlar salım,
Düzənlərə, yamaclara
Yaşıllıqlar sərib, gedim.

Ötən əsrin 40-cı illərində İranda-Cənubi Azərbaycanda baş verən milli-azadlıq hərəkatında bir çox şair və yazıçı soydaşlarımız da ön sıralarda yer almışdı. 1946-cı ildə milli hərəkatın qan içində boğulması həmin yazarları sovet Azərbaycanına mühacirətə vadar etdi. Onlar ömürləri boyu şahidi və iştirakçısı olduğu hadisələri ürəklərində yaşatdılar. Həmin şairlərdən biri də Həkimə Billuri idi.

Həkimə Billuri yaradıcılığını geniş oxucu kütləsinə tanıtmaq üçün kitabxanalarda şeir, bədii qiraət müsabiqələrinin keçirilməsi məqsədəuyğundur. Belə müsabiqələri keçirməkdə məqsəd oxucuların şeir demək bacarığını artırmaqla onları bədii qiraətə alışdırmaqdır. Şairə Həkimə Billurinin "Bakı" adlı şeiri əsasında bədii qiraət müsabiqəsini təqdim edirik:

**I Oxucu:**
Bakı, doğma vətənimsən,
Qızıl güllü çəmənimsən.
Üzüm gülməz səndən ayrı,
Gəl heç düşmə məndən ayrı.
Canım Bakı, gözüm Bakı,

Mənim şeirim, sözüm Bakı.
İlk bahardır sənin qışın.
Həm boranın, həm yağışın,
Həm küləyin xoşdur, inan.
Sən qardaşlıq dünyasısan.
Canım Bakı, gözüm Bakı,
Mənim şeirim, sözüm Bakı.
Neapola bənzədirlər,
Səni, Bakı, gözəl diyar.
Baharınsa Vyananın
Baharını xatırladar.
Mənsə səni bir dünyaya,
Dəyişmərəm inan, Bakı,
Sevimli mehriban Bakı!

**II Oxucu:**
Səninlə ilk görüşümdə,
Kədər saçan gözüm güldü.
Illər boyu şikayətli
Olan şeirim, sözüm güldü,
Sevimli mehriban Bakı,
Gözəlləş hər zaman, Bakı.

Tükənməz bir məhəbbətlə
Sevdim hər bir bucağını.
Təbriz, Zəncan sandım hər an
Doğma ana qucağını.
Canım Bakı, gözüm Bakı,
Mənim şeirim, sözüm Bakı.
Gecələrin zinətidir.

Ehtişamlı axşamların.
Bir dünyanın şöhrətidir
Göyündəki ağ şamların.
Canım Bakı, gözüm Bakı,
Mənim şirin sözüm Bakı.

Bu ellərə həyat verən,
İlhamıma qanad verən
Bircə sənsən, bir də Xəzər,
Sularında axşam, səhər
Əks eyləyən gözüm gülür,
Qəlbim gülür, üzüm gülür.
Canım Bakı, gözüm Bakı,
Mənim şirin sözüm Bakı.

Kitabxanalarda şairə H. Billurinin yubileyi ilə bağlı keçirilən tədbirlərdən biri də "Nağıl saatı"dır. "Nağıl saatı" kitabxananın Nağıl otağında keçirilir. Burada kiçik yaşlı uşaqlar üçün bir çox tədbirlər keçirilir ki, bunlardan ucadan oxu, səhərcik və s. tədbirləri misal göstərmək olar. H.Billurinin yaradıcılığına nəzər saldıqda görürük ki, onun qələmə aldığı şeirlər içərisində balaca fidan balalara aid şeirlər çoxluq təşkil edir. Bunlardan "Laylay", "Mənim balaca Leylam", "Kim tez oyansa" və s şeirləri misal göstərmək olar. Nağıl otağı meşə abu-havası ilə bəzədilir. Yaşıl ağaclar, güllər, heyvanların dekorasiyaları qarşısında kitabxanaçı "Kim tez oyansa" adlı şeiri kiçik yaşlı uşaqlara oxuyur. Bir qrup kiçik yaşlı uşaqlar meşə heyvanlarının paltarlarını geyinib səhnəcik göstərirlər.

Çaqqal yuxusundan tezdən oyandı,

Özünü meşənin ağası sandı.
Hələ yuxlayırdı bütün kainat,
Yatırdı canlılar, yatırdı həyat.
Şirin yuxudaydı meşə sultanı.
Mənə bu dünyada tay olan hanı?
Deyə düşünürdü qürurla çaqqal.
Rastına çıxanlar baş əydi dərhal.
Bürüdü qəlbini şübhələr bütün;
Bəlkə o hamıdan üstündür, üstün.
Bəlkə doğrudan da o elə şirdir?
Axı nə fərqi var, hamısı birdir.
Ağlı gözündədir görənlərin də,
Haqqı-həqiqəti bilənlərin də
Haqq sözü deməyə cürəti catmaz.
Qaldı ki, dostları çaqqalı atmaz...
Çaqqal düşünürdü elə bu zaman
Meşədən bağırıb çıxdı bir aslan.
Çaqqal görkəmini dəyişdi dərhal,
Vurnuxub aradan çıxanda çaqqal
İndi də heyvanlar baş əydi şirə,
Elə əyildilər, dəydilər yerə.
Şir ötüb meşədən vüqarla getdi,
Bir anda büsbütün o gözdən itdi...
Necə qəribədir dünyanın işi.
Çaqqal da yerisə aslan yerişi
O da birdən dönüb gözlənilmədən,
Meşədə şir olur, şir olur, bilsən!

Həkimə Billuri yaradıcılığına bir daha müraciət etmək, onun yaradıcılığını geniş oxucu kütləsinə sevdirmək üçün keçirilən

tədbirlərdən biri də ədəbi-bədii gecə və ya poeziya gecəsidir. Belə tədbirlər oxucuların ən çox maraq göstərdiyi və sevdiyi tədbirlərdəndir. Tədbir müxtəlif başlıqlar altında keçirilə bilər. "**Həkimə Billuri-90**" adlı bədii gecənin nümunəsini veririk.

**"Həkimə Billuri-90"** adlı ədəbi-bədii gecəyə kitabxanaçı bir ay qabaqcadan hazırlaşır. Tədbirə bir çox şair və yazıçılarla yanaşı ədəbiyyat müəllimlərini, kitabxanaçıları, tələbə və şagirdləri dəvət etmək olar. Tədbirin ədəbi hissəsi çıxış və məruzələrlə başlanır. Bədii hissədə isə Həkimə Billurinin şeirlərindən parçalar və poemalarından səhnəciklər göstərilə bilər. Səhnə gül dəstələri ilə bəzədilir. Şairənin portreti səhnənin divarından asılır.

Aparıcılar səhnəyə daxil olur.

("Ayrılıq" mahnısının həzin musiqisi altında aparıcılar danışır)

**I Aparıcı:** Həkimə Billuri ilk növbədə Azərbaycanın ikiyə bölünməsi faciəsini şəxsi taleyində yaşayan, yarım əsr doğulduğu yerləri, doğma ocağı görmək həsrəti ilə yanıb yaxılan, Təbrizi daim yuxularında görən, amma yuxuları heç çin çıxmayan, son nəfəsində belə bu həsrətlə barışmayan bir Azərbaycan şairəsidir. Bəli, Həkimə Billuri Güney daglarından bir udum hava, meşələrindən bir dənə yarpaq diləyən, vətənin suyundən bir cam içmək, Arazın o tayına qədəm basmaq həsrəti ilə nəfəs alan, vətən həsrəti deyilən xəstəliyə mübtəla olan faciəvi taleli Azərbaycan şairəsidir. Onun taleyi elə Azərbaycanın taleyinə bənzəyir.

Sinəmə ağır bir yükdü ayrılıq,
Belimi yay kimi bükdü ayrılq...
Həyat gözlərimdə sönmədən qabaq,
Sizdən bir diləyim olacaq ancaq.
Tufana, küləyə döndərin məni,
Göndərin vətənə göndərin məni!

**II aparıcı:**

Həkimə Billurinin şeirlərinin çox böyük bir hissəsi bu ağrının, bu böyük milli faciənin doğurduğu yaşantılardır. Həqiqi şairlər yaşadıqlarını yazanlardır və Həkimə xanımın şəxsi ağrılarından doğulan şeirləri oxucusunun da gözünə yaş, qəlbinə dərd qoyan şeirlərdir. Təsadüfi deyil ki, onun şeirlərində Təbriz, Araz, ayrılıq, Vətən sözləri ən çox təkrarlanan və duyğularına, yaşantılarına həmişəlik hakim olan anlayışlardır. Təbriz haqqında çox yazılıb- Təbriz həsrəti bizim Qarabağ dərdlərindən də qədim tarixi olan, yanğısı sinə göynədən dərdimizdir. Hökumə Büllurinin "Təbriz" şeiri o şeirlərin ən yaddaqalan, ən uğurlu nümunələrindəndir.
(*Oxucular səhnəyə daxil olur "Təbriz" şeirini söyləyirlər. Səhnədə ekranda Təbriz şəhəri canlanır*)

**I oxucu:**

Qolların dolanar boynuna bir gün,
Yenə baş qoyaram dizinə, Təbriz.
Həsrətdən, hicrandan cana doymuşam,
Doyunca baxaram gözünə, Təbriz.
Bulanıq suların axsın, durulsun,
Təzə günlərindən büsat qurulsun.
Səhənd camalına bir də vurulsun,
Bir qubar qonmasın üzünə, Təbriz.

Həsrətin yandırar, pörşüdər məni,
Zərif çiçək kimi üşüdər məni.
Səsləsəm Savalan eşidər məni,
Qızınnam oduna, közünə Təbriz.

**II Oxucu:**
Gülüstan bağının seyrinə gəlim,
Lalə yamacında bir də dincəlim,
Ötən günlərimə yetişməz əlim,
Düşüm heç olmasa izinə, Təbriz.

Ana təbəssümün ay işığıdır,
Qolum qamətinin sarmaşığıdır.
Şeirin bu dünyanın yaraşığıdır,
İncisi tükənməz xəzinə, Təbriz.
**III oxucu:**
Sən şair ömrünə vüqar vermisən,
Solub saralmayan gülzar vermisən.
Etibar vermisən, ilqar vermisən,
Hər igid oğluna, qızına, Təbriz.

Səttarxan bayrağın göylərə ucalt!
Qara buludları od ağzına at.
Şair qızının da sözlərini qat
Şirin söhbətinə, sözünə, Təbriz.

**II Aparıcı:** Həkimə Billuri yaradıcılıq aləminə əsrimizin 40-cı illərinin kükrəyib coşan xalq hərəkatının qüdrətli dalğaları qanadlarında gəlmişdi. Həkimə xanımın keçdiyi yaradıcılıq yollarını nəzərdən keçirdikdə çox uğurlu və mənalı bir mənzərənin şahidi oluruq. Onun yaşadığı ömür çoxçalarlı, dərəli-təpəli olmuşdur. Digər qələm dostları kimi, keçdiyi yaradıcılıq yolu, qarşılaşdığı acılı-şirinli həyat həqiqətləri onun əsərlərinin başlıca ilham və qida mənbəyini təşkil etmişdir.

**I aparıcı:**

Həkimə Billurinin ədəbi irsi zəngin və çoxşaxəlidir. Onun klassik üslubda yazdığı qəzəllər və bayatılarla yanaşı, müasir həyatımızla bağlı olan əsərləri yüksək sənətkarlıq nümunələridir. Sənətkarın vətən həsrətli şeirləri iki yerə bölünmüş ana torpağın dərdi ilə dolu idi. Dərin həyat fəlsəfəsi, vətənpərvərlik ruhu, yüksək humanist ideyaları ilə səciyyələnən Billuri yaradıcılığı müasir Azərbaycan poeziyasının parlaq səhifələrindəndir.

(*Oxucular səhnəyə daxil olur "Azərbaycan" adlı şeiri söyləyirlər. Azərbaycanın gülüstan yerləri ekranda canlanır*)

**I oxucu:**

Azərbaycan, Azərbaycan, şanlı yurdum, məskənim
Ey umudum, səadətim, təravətli gülşənim!
De, oxsadım nəyə səni, ey sevimli Vətənim?
Qoy yolunda qurban getsin həyatımla bədənim.
Ey dilbərim, ey cananım, ey işıqlı məkanım!

**II oxucu:**

Ey səfalı cənnət yurdum, sən, ey arxam, gümanım!
Ey pənahım, idealım, sən, ey sönməz şüarım!
Səndən çalır, səndən deyir mənim şeirim, rübabım.
Sən işıq ver, ürəyimə qaranlıqlar ərisin,
Xoşbəxtliyin işıqları gözlərimi bürüsün.

**III oxucu:**

Sən qurtardın əsarətdən məni, gözəl Azərim
Təməddünə, tərəqqiyə sən olubsan rəhbərim.
Ey vətənim, nə gözəldir sənin qala dağların!
Səfalıdır, ana Vətən, dərələrin, bağların.

Tikilibdir, əziz ölkəm, ay qiyafən gözümə
Səadətin al şəfəqi səndən düşüb üzümə.

**IV oxucu:**
Camalını görən zaman cuşa gəlir ürəyim.
Sənlə, Vətən, hasil olur. Muradımla, diləyim.
Ey Vətənim, göstəribsən bizə mehri-şəfəqqət
Hümmətinlə yaranıbdır ürəklərdə məhəbbət.
Qeyrətlidir oğlanların, qəhrəmandır qızların,
Bil qarşında düşmən bükər acizanə dizlərin.
Arzum budur yetişəsən muradına hər zaman,
Yaşayasan görüm səni tarix boyu kamiran.
Sənsən bizə əzəl gündən Səttar xandan yadiğar,
Çalışaram mən uğrunda nə qədər ki, canım var.

**II aparıcı:**
Həkimə Billurinin şeirlərinin böyük bir hissəsi milli faciənin doğurduğu yaşantılar olub. Çox haqsızlıqların, faciəvi hadisələrin iştirakçısı olmasına baxmayaraq yaradıcılığında sabaha ölməyən bir ümid, inam hissi aparıcı xətt kimi keçir. "İnanıram o parlaq günə", - deyən şairə Vətənin bütövləşəcəyinə və xalqının öz azadlığına qovuşacağına böyük bir inam bəsləyib. Azərbaycan onun şeirlərində bütövdür, tamdır və bölünməzdir. Vahid və azad Azərbaycan ideyası onun həyatının məzmununu və yaşamının qayəsini təşkil edib.

Oxucular səhnəyə daxil olur "Mən də" şeirini söyləyirlər.

**I Oxucu:**
Mən də bir şairəm sinəsi dağlı,
Ayrılıq nəfəsli, hicran soraqlı.

Vətənin qapısı üzümə bağlı,
Hər axşam bu dərddən alışır sinəm,
Vətən həsrətliyəm, el həsrətliyəm.

Həyatın öz səsi, gur səsiyəm mən,
Varlığın bir səhər nəfəsiyəm mən.
Haçandır azadlıq təşnəsiyəm mən,
Qəlbimdə məhəbbət bulağı çağlar,
Bir gözüm güləndə, bir gözüm aglar.

Səhər oyanmamış, günəş gəlməmiş,
Arzular üfüqün özütək geniş.
Torpağa, insana, günəşə alqış.
İnsan arzuları günəşdən uca,
Baxdım dan yerinə, baxdım doyunca.

Dəniz ovsunlayıb ayı da alır,
Çəkir sinəsinə, sular qaralır,
Qızılı bir şəfəq sularda qalır,
Açır gözlərini oyanır səhər,
Başlayır uğurlu bir aydın səhər.

**II Oxucu:**
Budur, nəfəs alır küçə, xiyaban,
Dəniz lap birinci qalxır yuxudan.
Həyatın zinəti ey ulu insan,
Dənizə, günəşə, sənə vurğunam,
Vurğunam, vurğunam, yenə vurğunam.

Məşəltək alışan bir ürəyəm mən,

Səhərə nur verən bir diləyəm mən.
Bir ölməz arzuyam, bir istəyəm mən.
Dağlardan möhkəməm, zirvədən uca,
Qalsın arzularım dünya durunca.

O tayda, bu tayda məşəl yandıran,
Səhərin yolunu işıqlandıran,
Göylərdə günəşdir, həyatda insan,
İnsan arzuları, günəşdən uca,
Baxdım dan yerinə ömrüm boyunca.

**I aparıcı:**

Bəli, elə o tayda, bu tayda ömrü boyu məşəl yandıran Həkimə Billuri! O, əbədi ömür şəhadətnaməli mübarizə və qələm dostu oldu... Əbədiyyət dünyasında ona Tanrıdan mərhəmət və rəhmət diləyirik.

Qeyd edək ki, keşməkeşli həyat yolu keçən şairə 2000-ci il noyabrın 22-də ömrünün 75-ci ilində Bakıda vəfat etmişdir.

## ƏDƏBİYYAT    S İYAHISI

www. Google. Az.

1. H. Billuri. Seçilmiş əsərləri. B.: Şərq-Qərb, 2005.-224 s.
2. H. Billuri. Apar məni o yerlərə.B.: Yazıçı, 1981.- 120 s.
3. H. Billuri. Çinar gözləyir məni. B.: Azərnəşr, 1976.-119 s.
4. H. Billuri. Istərəm. B.: Azərnəşr, 1969.-314 s.

**Ayrılıq nəfəsli, hicran soraqlı şairə Həkimə Billuri:**

**(**metodik vəsait)

**Kompyuter yığımı**
**və dizayn:** ***Könül Səmədzadə***

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç. 88;**
**E-mail: childlibbaku@yahoo.com**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş:15
Çapa imzalanmışdır:20.02.2016
Tirajı:100
Pulsuz